# Qiyamət günü, heç bir qul həyatını necə keçirməsi, elmi ilə nə işlər görməsi, malını haradan qazanıb hara xərcləməsi və bədənini harada yorduğu haqqında soruşulmadıqca yerindən tərpənməyəcək

Əbu Bərzə əl-Əsləmidən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: «Qiyamət günü, heç bir qul həyatını necə keçirməsi, elmi ilə nə işlər görməsi, malını haradan qazanıb hara xərcləməsi və bədənini harada yorduğu haqqında soruşulmadıqca yerindən tərpənməyəcək».
[Səhih] [Ət-Tirmizi rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, Qiyamət günü bu suallar soruşulmadan heç kəs hesab yerindən Cənnət və ya Cəhənnəmə getməyəcək: Birincisi: Həyatı haqqında. Onu nəyə sərf etdi və necə keçirdi? İkincisi: Elmi haqqında. Onu Allahın razılığı üçün öyrəndimi? Onunla əməl etdimi? Bu elmi layiq olan kəslərə çatdırdımı? Üçüncüsü: Malı haqqında. Onu haradan qazandı, halal yoxsa haram yoldan qazandı? Qazancını nəyə xərclədi, Allahı razı salacaq şeylərə yoxsa Onu qəzəbləndirəcək şeylərə? Dördüncüsü: Bədəni, gücü, sağlamlığı və gəncliyi haqqında. Gəncliyini necə keçirdi və nəyə sərf etdi?



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee